# İsa Həbibbəyli -70

## Azərbaycan ədəbiyyatşünaslıq elminin İsa zirvəsi

Yer üzünün əşrəfi olan insanın və insanlığın inkişaf tarixinə nəzər salmaq, onun ayrı-ayrı mərhələlərinə səyahət etmək olduqca mənalı və maraqlıdır. Çünki bu inkişaf yollarında hər bir insanın keçdiyi mənalı və şərəfli həyat yollarının ayrı-ayrı səhifələri və əldə etdiyi uğurları öz əksini tapmışdır. Müasir dövrümüzdə ayrı-ayrı insanların, xüsusilə, alimlərin, mədəniyyət xadimlərinin, sənət adamlarının keçdiyi dəyərli ömür yollarını öyrənmək və təbliğ etməyin müasir zəmanəmizdə olduqca mühüm əxlaqi, mənəvi və ictimai-siyasi əhəmiyyəti vardır. Xüsusilə, inkişaf etməkdə olan gənc nəsil üçün akademik İsa Əkbər oğlu Həbibbəylinin keçdiyi mənalı həyat, elm və təhsil yolları örnək olmalıdır.

Azərbaycan ədəbiyyatşünaslıq elminə şərəf və şöhrət gətirən alimlərdən biri olan İsa Əkbər oğlu Həbibbəylinin 70 yaşı oktyabrın 16-da tamam olur. İsa Əkbər oğlu Həbibbəyli 1949-cu il oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Onun göz açdığı Naxçıvan diyarı, təbiətin yaratdığı möcüzələr aləmi, göylərə baş çəkən Naxçıvan dağları İsa müəllimin ilham aldığı məkanlar olmuşdur. İsa müəllimin uşaqlıq illəri Naxçıvanın Danzik kəndində keçmiş, ana təbiətin yaratdığı nemətlər və möcüzələr İsa müəllimi özünə məftun etmişdir...

1966-cı ildə orta məktəbi müvəffəqiyyətlə qurtardıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının dil-ədəbiyyat fakültəsinə daxil olmuş və 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1971-1974-cü illərdə İsa müəllim Şərur rayonunda orta məktəbdə müəllim işləmişdir.

Gənc və yüksək istedada malik olan İsa müəllim 1974-cü ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına "Ədəbiyyat nəzəriyyəsi" ixtisası üzrə daxil olmuş və 1978-ci ildə oranı müvəffəqiyyətlə qurtarmışdır. O "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə sona çatdırıb, 1980-ci ildə onu müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1996-cı ildə İsa müəllim XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli xadimi Cəlil Məmmədquluzadəyə həsr etdiyi "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" adlı doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Bir il sonra, yəni 1997-ci ildə İsa müəllim professor elmi adına layiq görülmüşdür.

İsa müəllim 1991-1996-cı illərdə Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, 1996-2013-cü illərdə isə həmin universitetin rektoru vəzifəsində çalışmışdır. Universitetə rəhbərlik etdiyi müddətdə İsa müəllimin elm, təhsil və təşkilatçılıq sahəsində əldə etdiyi nailiyyətlər Naxçıvan Dövlət Universitetinin fəaliyyətində nəzərə çarpacaq dərəcədə inkişaf etmişdir. O, daim tələbə və müəllim heyətinin tədris prosesini diqqətlə izləyir, tələbələrin tədrisə və elmə marağını artırmaq üçün Naxçıvan Dövlət Universitetində müxtəlif tədbirlər həyata keçirməyə başlayır. Nəticədə Naxçıvan Universitetinin məzunları arasında elmlər namizədi, elmlər doktoru və hətta Elmlər Akademiyasının müxbir üzvlüyünə qədər yüksələn kadrlar meydana gəlmişdir. Naxçıvan universitetinin məzunları nəinki Naxçıvanın eyni zamanda Azərbaycan elminin inkişafına öz töhfələrini verməyə başlamışlar.

Naxçıvan Dövlət Universitetindəki yorulmaz, fədakar və yaradıcı fəaliyyəti nəticəsində İsa müəllim elmi əsaslara söykənərək məktəb yaratmışdır. Onun elm, təhsil və təşkilatçılıq bacarığı nəticəsində Naxçıvan Universitetində yaratdığı elmi-tədris məktəbinin əldə etdiyi nailiyyətlər bu gün də öz bəhrəsini verməkdə davam edir.

İsa Həbibbəyli ədəbiyyatşünaslıq elmində əldə etdiyi nəticələrə görə 2001-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü, 2003-cü ildə isə AMEA-nın həqiqi üzvü seçilmişdir.

İsa müəllimin elmi yaradıcılığı nəticəsində Azərbaycan ədəbiyyatşünaslıq elminə mühüm yeniliklər gətirilmiş və o yeniliklər İsa müəllimin çap etdirdiyi əsərlərdə öz əksini tapmışdır. Onun elmi yaradıcılığı sayəsində ədəbiyyatşünaslıq elminin İsa zirvəsi yaranmışdır. Belə yüksək zirvəyə qalxmaq hər tədqiqatçıya nəsib olmur.

İsa müəllim 2013-cü il aprelin 25-dən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə seçilmişdir. Həmin ildən etibarən İsa müəllim Nizami adına Ədəbiyyat İnstitutunun direktoru vəzifəsində çalışmağa başlamışdır. İsa müəllimin son 7 il ərzində Azərbaycan Milli Elmlər Akademiyasında çalışdığı müddət ərzində yüksək təşkilatçılıq bacarığı nəticəsində akademiyanın fəaliyyətində xüsusilə ictimai və humanitar elmlər sahəsində canlanma meydana gəlmiş və alimlərin yazdığı əsərlər kəmiyyət və keyfiyyət etibarilə yüksəlməyə başlamışdır. İsa müəllim Elmlər Akademiyasının təşkil etdiyi beynəlxalq konfranslarda etdiyi çıxışlarla Azərbaycan elminin əldə etdiyi nailiyyətləri geniş şərh edir və bu inkişafı daha da yüksək nailiyyətlərə qaldırmaq məqsədilə özünün var-qüvvəsini sərf edir. İsa müəllimin yüksək elmi, təhsili, savadı ilə birlikdə onun təşkilatçılıq bacarığı, yüksək əxlaqi, mənəvi keyfiyyətləri insanı valeh edir və onun fəaliyyəti nəticəsində bu uğurların daha da inkişaf etməsinə zəmin yaranır. İsa müəllimin digər keyfiyyəti isə insanlara münasibətdə yüksək diqqətə malik olması, onların problemini diqqətlə dinləyib həll etməsi üçün özünün var gücünü sərf etməsidir. Akademiyanın istənilən bir əməkdaşı qəbul saatı oldu-olmadı İsa müəllimə yaxınlaşa bilər, özünün problemi haqqında ona məlumat verə bilər və bunun müqabilində İsa müəllim həmin əməkdaşının probleminin həll olunmasında özünün töhfəsinin vaxtında verməyə çalışır. Və bu da öz nəticəsinin verir, bu xüsusiyyət akademiya əməkdaşlarında özünə inam hissini artırır. Bu xüsusiyyət ancaq akademik İsa müəllimə məxsusdur. Görünür bu da İsa müəllimin həddən ziyadə zəhmətkeş olması, savadlı insanların qədrini bilməsi və elm adamlarının cəmiyyət, dövlət üçün nə qədər xeyirli olmasını dərk etməsi ilə bağlıdır. Məhz bu yolda mən İsa müəllimə öz minnətdarlığımı bildirir və bunun davam etməsi üçün ona möhkəm can sağlığı arzu edirəm.

2018-ci il martın 14-də səhər saat 11:00-da Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İsa Həbibbəyli mənə zəng edərək 15 dəqiqədən sonra institutun direktoru Mayisə xanım Rəhimova və akademik Teymur Bünyadovla birlikdə mənim otağıma gələcəyini bildirdi. Həmin gün mənim Azərbaycan Elmlər Akademiyasında işlədiyimin 50 ili və anadan olduğum ilin 69-cu baharı tamam olurdu. İsa müəllim dediyi vaxtda akademiyanın 6-cı mərtəbəsində olan 607-ci otağı döyərək içəriyə daxil oldular. Mən gözlərimə inanmadım, lakin bu həqiqət idi. İsa müəllim mənə ad günüm və akademiyada fəaliyyət göstərməyimin 50 illiyi münasibətilə dahi Nizaminin "Sirlər xəzinəsi" kitabını hədiyyə etdi. Mən İsa müəllimin mədəniyyətinə, əxlaqına, ziyalıya verdiyi bu yüksək qiymətə heyran oldum və düşündüm ki, Azərbaycanın hər qarışı, Qarabağ və o cümlədən Naxçıvan torpağının yetişdirdiyi ziyalıların əksəriyyəti elmə, savada yüksək qiymət verirlər. Çünki mən hesab edirəm ki, insanın əxlaqına, mədəniyyətinə torpağın, suyun mühüm təsiredici amili vardır. İsa müəllimlə birlikdə 1 saat 15 dəqiqə səmimi söhbət etdik. Arxeologiyanın, o cümlədən Azıx paleolit düşərgəsindən tapılmış Azıxantropun çənəsinin 50 illiyi ilə əlaqədar keçiriləcək beynəlxalq konfrans haqqında fikir mübadiləsi apardıq. Bununla yanaşı institutun arxeoloji fondunun vəziyyətini yaxşılaşdırmaq üçün fikir mübadiləsi apardıq. İsa müəllimin yüksək mədəniyyətə malik olaraq mənə qarşı göstərdiyi diqqət hesab edirəm ki, ömrümün ən müqəddəs səhifələrindən biri olub və ona bu münasibət ilə özümün dərin ehtiramımı və səmimiyyətimi bildirməyi özümə mənəvi borc hesab edirəm.



Yuxarıda qeyd etdiyim misalların sayını artıra bilərəm lakin buna ehtiyac duymuram. Mən Milli Elmlər Akademiyasında işlədiyim 52 il ərzində belə İsa müəllim kimi yüksək mədəniyyətə, əxlaqa, insani keyfiyyətlərə malik vitse-prezident görməmişəm. Görünür bu Naxçıvanın torpağının dünyaya bəxş etdiyi ziyalılara məxsus keyfiyyətlərdən biridir. Akademik İsa müəllimin AMEA-da çalışdığı 7 il ərzində təşkil edib və məharətlə idarə etdiyi bir neçə tədbirlərin iştirakçısı olduğum üçün deyə bilərəm ki, onların hamısı məndə qürur hissi oyatmışdır. 2016-cı il aprelin əvvəllərində qəhrəman Azərbaycan əsgərlərinin Qarabağda əldə etdiyi nailiyyətlərə həsr olunmuş tədbirdə İsa müəllim məharətlə və elmi əsaslara söykənmiş faktlarla çıxış edərək Qarabağın Azərbaycanın əzəli və əbədi ərazisi olduğunu, onun tezliklə tam azad olunacağını və orada yenidən elmi tədqiqat işlərinin aparılmasının zəruri olduğunu bildirdi.

Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yaranmasının 80 və 85 illiklərinə həsr olunmuş elmi konfransda İsa müəllimin etdiyi məruzələr ədəbiyyatşünaslıq elminin əldə etdiyi nailiyyətlər mənbələr əsasında geniş şərh olunmuşdur. Bu məruzələr iştirakçılara zövq verdi. Akademik İsa Həbibbəyli ən məhsuldar elm xadimlərindən biridir. Onun çap etdirdiyi əsərlərə nəzər salsaq qeyd etdiyim fikir tamamilə aydın olur. O, 89 kitabın, 1428 məqalənin müəllifidir. Maraqlıdır ki, onun xaricdə çap etdiyi elmi məqalələrin sayı 212-dən artıqdır.

İsa müəllimin çap etdirdiyi əsərlər: "Romantik lirikanın imkanları", "Ədəbiyyat nəzəriyyəsi", "Cəlil Məmmədquluzadə", "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri", "Xalq şairi Məmməd Araz", "Ustad Məmmədhüseyn Şəhriyar", "Şəhriyar dünyası", "Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti", "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları", "Ədəbi tarixi yaddaş və müasirlik" və digər çap etdirdiyi kitablar elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmiş və həmin əsərlərin nəticəsində İsa müəllimin elmi məharəti və Azərbaycan ədəbiyyatına verdiyi töhfələr özünün əksini tapmışdır.

Akademik İsa Həbibbəylinin əsərləri Azərbaycan dilindən başqa ingilis, fransız, rus, ərəb, türk, urdu, bulqar, macar və digər dillərdə də çap olunmuşdur. Akademik İsa Həbibbəylinin ABŞ, İngiltərə, Çin, Fransa, Rusiya, Türkiyə, Almaniya, Cənubi Koreya, İspaniya, İran, İraq, Bolqarıstan, Monqolustan və digər ölkələrdə keçirilən beynəlxalq simpozium, qurultay və konfranslarda etdiyi elmi məruzələr alimlər tərəfindən yüksək qiymətləndirilmiş və onun beynəlxalq aləm də şöhrət qazanmasına zəmin yaratmışdır. Akademik İsa Həbibbəylinin XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının mərhələ və problemlərinin, Cəlil Məmmədquluzadə, Məmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtinski irsinin araşdırılmasında, romantik poeziyanın nəzəri problemlərinin, poetikasının tədqiq edilməsi, Azərbaycan ədəbiyyatında dövrləşdirmə konsepsiyası və inkişaf mərhələlərinə aid əldə etdiyi elmi nailiyyət alimlər tərəfindən yüksək qiymətləndirilir.

Akademik İsa Həbibbəylinin elm və təhsil sahəsində əldə etdiyi elmi nailiyyətlər həddən ziyadə çoxdur. Alim bu gün də öz elmi araşdırmalarını davam etdirir və Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına öz töhfələrini ver-məyə davam edir. Akademik İsa Həbibbəyli ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edir. O, 1998-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin deputatı 2005-ci ildən isə bu günə qədər Azərbaycan Respublikası Milli məclisini deputatı kimi öz fəaliyyətini səmərəli davam etdirməkdədir. Akademik İsa Həbibəyli 2015-ci ildən etibarən milli məclisin elm və təhsil komitəsinin sədri kimi fəaliyyət göstərməkdədir. O, özünün bütün gücünü, savadını, milli məclisdə etdiyi çıxışları ilə respublikamızda elmin və təhsilin inkişafı naminə elm və təhsil sahəsində yaranmış problemlərin həll edilməsi yolunda sərf edir. Çünki İsa müəllim gözəl başa düşür ki, millətin və dövlətin gücü onun elm və təhsildə əldə etdiyi nailiyyətlər əsasında ölçülür. Akademik İsa Həbibbəylinin göstərdiyi elmi, ictimai-siyasi fəaliyyət respublikamızın prezidenti cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilir. O, 2007-ci ildə şöhrət ordeni ilə, 2009-cu ildə isə şərəf ordeni ilə təltif olun-muşdur.

Bu gün akademik İsa Həbibbəyli özünün elmi yaradıcılığının ən yüksək zirvəsini fəth etməkdədir. O, gecə və gündüz yorulmadan çalışaraq Azərbaycan elminin və təhsilin inkişafı üçün əlindən gələni əsirgəmir Yüksək əxlaqa, mədəniyyətə, insani keyfiyyətlərə, təşkilatçılıq qabiliyyətinə malik olan hörmətli akademik İsa müəllimi bu yubiley günü münasibətilə ürəkdən təbrik edir, ona yeni-yeni uğurlar və möhkəm can sağlığı arzu edirəm.

*Əsədulla* Cəfərov
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***Daş dövrü arxeologiyası şöbəsinin müdiri, t.e.d., professor .***
***1.10.2019***